*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 451-456*
https://doi.org/10.62837/2024.3.451

**XUDİYEVA İLQARƏ TOFIQ**
*Bakı Slavyan Universiteti (BSU)*
*Bakı şəhəri, S.Rüstəm küç., 33.*
*E-mail:* xudiyevailqare@gmail.com

# AZƏRBAYCAN TƏHSİLİNDƏ İZ QOYMUŞ QADIN MÜƏLLİMLƏR

**Açar sözlər:** maarifçilik, qadın təhsili, məktəblər
**Keywords:** education, women's education, schools
**Ключевые слова:** просветление, женское образование, школы

Azərbaycan maarifçilik tarixində qadınların azadlığı, onların fəal ictimai həyata cəlb olunması, cəhalətdən qurtulması naminə xalqın övladlarına savad vermiş, elmin, maarifçiliyin inkişafında misilsiz xidmətləri olmuş, ömrünü məktəb, təhsil, maarif işinə həsr etmiş maarifçi qadınlarımız adlarını tarixə yazmışlar. Sona Tağıyeva, Aida İmanquluyeva, Sara Vəzirova, Xədicə Qayıbova, Məryəm Bayraməlibəyova, Hənifə Məlikova, Həmidə Məmmədquluzadə və s kimi maarifpərvər qadınlar vardır. Bu ziyalı qadınlardan biri də Səidə xanım İmanzadədir. İnsanlara isti münasibəti və mehriban siması ilə ağılımızda qalan Səidə İmanzadə 1910-cu il dekabrın 29-da Azərbaycanın dilbər guşəsi olan Şəkidə, böyük maarifçilik ənənələrinə, geniş dünyagörüşünə malik, təhsil görmüş bir ailədə dünyaya göz açmışdır. Səidə xanım ilk təhsilini 1915-ci ildə molla məktəbində - mədrəsədə almışdır. O, ailəsi ilə 1924-cü ildə Bakıya köçmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dirçəliş geniş vüsət aldığı zamanda Səidə xanım da məhz maarif işığına doğru gedərək ibtidai təhsil əldə etmişdi. Cəmiyyətin həyatında baş verən irəliləyişlər Səidə xanım üçün də geniş imkanlar açmışdı. O, ailəsilə 1924-cü ildə Bakıya köçərək yeni həyat uğrunda mübarizəyə qoşulmuşdu. Yeni cəmiyyət quruculuğunun ilk zamanlarında öz həllini tələb edən ən mühüm ictimai problemlərdən biri də qadın azadlığı idi. Bu məqsədlə Bakı və onun rayonlarında onlarca qadın klubları, savad kursları yaradılmışdı və burada qadınlar arasında fəal ictimai-siyasi iş aparılırdı. Səidə İmanzadə 1925-ci ildə Əmircan qəsəbəsində fəaliyyət göstərən "Qadın nümayəndələri iclası" adlanan təşkilatın fəal üzvlərindən biri olmuş, burada azərbaycanlı qadınlar arasında iş aparmış, qadınların hüquq və imkanlarını onlara başa salmışdır.

Səidə xanım İmanzadə ictimai fəaliyyəti ilə yanaşı, öz təhsilini davam etdirməyi də unutmamışdı. O, 1926-cı ildə Bakıda fəaliyyət göstərən "Türk sənaye məktəbi"nə daxil olmuşdu. O zaman Azərbaycanda qadın azadlığı hərəkatının mərkəzi hesab edilən Əli Bayramov adına qadınlar klubunda 1928-ci ildən başladığı fəaliyyət Səidə xanımın ictimai həyatında yeni mərhələ oldu. O, bütün qüvvəsini qadın hüquqları uğrunda mübarizəyə yönəltmişdi. Təqiblər, təhqirlər və hədələr gənc Səidəni xalqına savad vermək kimi şərəfli yoldan çəkindirə bilməmişdi. Onun Əli

Bayramov klubundakı fəaliyyəti nəticəsində neçə-neçə azərbaycanlı qadın ictimai həyata qədəm qoymuşdu.

İmanzadə Səidə xanım oxumaq eşqilə yaşadığı üçün bununla kifayətlənmənməmiş, ümdə arzusu olan Tibb İnstitutuna daxil olmuşdu. Lakin 21 yaşında molla-axund qızı olduğundan təhsil aldığı Tibb İnstitutundan xaric edilir. Ona görə də Səidə xanım 1930-cu ildə sənaye məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini artırmaq üçün fəhlə fakültəsinə qəbul edilmişdi. O, 1934-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix və ictimaiyyət fakültəsini bitirməklə özünün ən böyük arzusuna çatmışdı. Sonrakı bütün həyatını müəllimliyə həsr etmişdi. İlk öncə Pirallahı adasındakı 98 saylı orta məktəbdə, sonradan 21 saylı məktəbdə çalışmış, qısa müddətdə adi müəllimlikdən orta məktəb direktoru vəzifəsinə qədər yüksəlmişdi. O, müəllimliklə yanaşı, ictimai fəaliyyətini uğurla davam etdirmiş, Bakı Soveti nəzdindəki "Mədəni yürüş" təşkilatının fəal İştirakçısı olmuşdu. Həmin illərdə S.İmanzadəni qadın azadlığının düşmənlərinə qarşı, cəhalətə və savadsızlığa qarşı respublikamızda gedən ümumxalq hərəkatının önündə görmək olardı.

1941-ci ildə II Dünya müharibəsinin başlanması ilə Səidə xanımın qayğıları daha da artmış və fəaliyyət sahəsi genişlənmişdir. Onun həyat yoldaşı və oğullarını fabrik-zavodlarda əvəz etmiş fəhlə qadınlar arasında, hərbi xəstəxanalarda tez-tez görmək mümkün idi.

1942-ci ildə Səidə xanım İmanzadə görkəmli ziyalılarımız olan Səməd Vurğun və Mirzə İbrahimovla birlikdə Tiflisdə keçirilən Zaqafqaziya ziyalılarının antifaşist mitinqində iştirak etmiş və alovlu nitq söyləmişdir.

Müharibə illərində Səidə İmanzadəni Bakıda Qızlar İnternatının müdiri kimi məsul bir vəzifəyə irəli çəkmişdilər. O, sonralar həmin çətin illəri böyük ürək ağrısı ilə xatırlayaraq deyirdi: "Atalarını müharibədə itirmiş, valideyn himayəsindən məhrum olmuş qızların təhsili və taleyi məsələsi bizi çox düşündürürdü. Nə qədər ağır, iztirablı anlar keçirsək də, məktəbdə təlim-tərbiyə işini yüksək səviyyədə qura bilmişdik. Müəllimlərimiz bu qızlara əsl analıq qayğısı göstərirdilər..." [6. ]

1943-cü ildə 132 nömrəli məktəbə direktor təyin olunan Səidə xanım kadr çatışmazlığı olduğuna görə Bakı Dövlət Universitetinin tarix fakültəsində də dərs demişdir. Həmin ildən də S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində əvvəl müəllim, sonra isə dosent vəzifəsində çalışmışdı. Səidə İmanzadə uzun illər universitetin tarix fakültəsinin dekanı kimi geniş fəaliyyət göstərmiş, SSRİ tarixi kafedrasında dosent vəzifəsində çalışmış, keçmiş SSRİ tarixinin yeni dövrü üzrə yüksək səviyyədə və məzmunlu mühazirələr oxuyub ixtisas kursları tədris etmişdi. “Böyük qürur hissi ilə qeyd etmək lazımdır ki, S.İmanzadə fakültənin dekanı olarkən ümummilli liderimiz Heydər Əliyev BDU-nun tarix fakültəsində təhsil alıb. Səidə xanım ulu öndərin xüsusi istedadı və bacarıqları haqqında öz xatirələrində fikirlərini bölüşüb, onu dərin zəka sahibi adlandırıb”. [2. S.11] Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə Səidə xanıma müxtəlif vəzifələr, xüsusilə rəhbər vəzifələr təklif etsə də, təvazökar qadın müəllimliyi bütün vəzifələrdən üstün tutaraq sevimli tələbəsinin təklifilə razılaşmamış, BDU-da pedaqoji fəaliyyətini davam etdirmiş, Bakı Qadınlar Şurasının sədri kimi respublikanın ictimai-siyasi həyatında önəmli rol

oynamış, Azərbaycan Qadınlar Şurası sədrinin müavini kimi fəal ictimai iş aparmış, İçərişəhərdəki xalçaçılıq sexində "Ləyaqət", Əbilov adına mədəniyyət sarayında "İsmət" qadınlar klublarına rəhbərlik etmişdir. 1982-ci ildə təqaüdə çıxsa da BDU-da və Bakı Qadınlar Şurasında fəaliyyətini ömrünün sonunadək davam etdirmişdir. [2. s. 11]

Uzun müddət Universitetdə fəaliyyət göstərən Səidə İmanzadənin adı Həmid Araslı, Məmmədcəfər Cəfərov, Feyzulla Qasımzadə və Mir Cəlal Paşayev kimi akademiklərin sırasında çəkilməsi də onun fəaliyyətinin nəticəsi olmuşdur.

Azərbaycan tarixində qadınların rolunu aşkarlayıb, İslamın Azərbaycanda yayılmasının spesifik xüsusiyyətlərini açıqlaya bilən Səidə xanım bütün bunları ustalıqla həyata keçirə bilmişdir. Məhz bu baxımdan onun monoqrafiyalarından biri "İslam və Azərbaycan qadını" adlanır.

1942-ci ildə Zaqafqaziya ziyalılarının antifaşist mitinqində Səidə xanım Səməd Vurğun və Mirzə İbrahimov ilə birlikdə Azərbaycanı təmsil etmişdir. O dövrdə 32 yaşlı xanımın belə şücaəti böyük rezonansa səbəb olur.

1941-1945-ci illərin ağır müharibə günlərində Səidə xanım İmanzadənin çoxcəhətli fəaliyyəti - ilk növbədə pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmişdi. 1943-cü ildə ona respublikanın "Əməkdar müəllimi" fəxri adı verilmişdir. 1944-cü ildə "Qafqazın müdafiəsi, 1945-ci ildə isə "1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyə görə" medalı ilə təltif edilmiş, 1946-cı ildə isə Lenin ordeninə layiq görülmüşdür. Sinəsini bəzəyən medallar ona xüsusi ruh verirdi. Çünki Səidə xanım bunları yuxusuz gecələrinin, ağrılı günlərinin, çətin illərinin bəhrəsi sayırdı. Özünün dediyi kimi: "Qınayan olmasaydı, medallarla bəzənən bu geyimi, çəkdiyim əziyyət uğundan bəhrəsini gecə-gündüz əynimdən çıxarmazdım". [5. s.9]

1954-cü ildə "Azərbaycanda qadın hərəkatının tarixindən" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Hələ gəncliyindən qadın azadlığı hərəkatını izləyən, öz elmi, pedaqoji və ictimai fəaliyyəti ilə bu hərəkatda bilavasitə iştirak edən Səidə xanım həmin mövzuda 75-dən çox kitabça və məqalə çap etdirmişdi. S. İmanzadənin "Qadınlar cəmiyyətdə və ailədə" (1963), "Qadının- ananın şərəfini yüksəldək" (1967), "İslam dini və qadın məsələsi" (1968), "Azərbaycan qadınları Böyük Vətən müharibəsində"(1969), "Azərbaycan qadınları mədəniyyət cəbhəsində" (1970) kitablarında Azərbaycanda qadın azadlığı uğrunda mübarizə tarixinin çətin, ziddiyyətli, mürəkkəb, həm də şərəfli dövrü zəmanənin siyasi çərçivələrini və qadağalarını, siyasi konyukturasını nəzərə alaraq, mümkün qədər obyektiv işıqlandırılmışdır. "Azərbaycanda qadın azadlığı", "Qadınlar sülh uğrunda mübarizədə", "Qadının cəmiyyətdə rolu" və s. mövzuda yazdığı əsərlər respublikanın elmi İctimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Onun Azərbaycanda qadın hərəkatı tarixinə həsr olunmuş tədqiqatı Paris və San-Fransisko şəhərlərinin kitabxanalarında saxlanılır.

Səidə xanım İmanzadə yaşının ixtiyar çağında elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, ictimai fəaliyyətini də gənclik həvəsi ilə davam etdirirdi. O, uzun müddət Azərbaycan Qadınlar Şurası Rəyasət Heyətinin üzvü, Bakı Şəhər Qadınlar Şurasının sədri olmuşdur. Səidə xanımın yetirmələri, tələbələri elm, təhsil və mədəniyyət

sahəsində böyük uğurlar qazanmışlar. Onlar bu gün respublikamızda elmin və təhsilin inkişafında öz müəllimlərinin adına layiq çalışırlar. Onlar bu gün respublikamızda elmin və təhsilin inkişafında öz müəllimlərinin adına layiq çalışırlar. Bundan başqa, Səidə xanım yüksək ixtisaslı tarixi kadrlar hazırlanmasında fəal iştirak etdiyinə görə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin fəxri fərmanı, respulikada elmi biliklərin yayılmasında xidmətlərinə görə Ümumittifaq "Bilik" cəmiyyətinin fəxri fərmanı ilə mükafatlandırılmışdır. Onu adı hələ 1962-ci ildə "Bilik" cəmiyyətinin fəxri kitabına yazılmışdır. O, Mərkəzi Komitənin mühazirəçisi idi, 16 çağırış ardıcıl olaraq Bakı Şəhər Xalq Deputatları Sovetinin deputatı seçilmiş, 11 dəfə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına layiq görülmüşdür. 1 may 1992-ci il tarixdə – 81 yaşında, Bakıda vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olumuşdur.

28 dekabr 2010-cu il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində Səidə İmanzadənin anadan olmasının 100 illiyinə həsr edilmiş tədbir keçirilmişdir.

Daha sonra 11 yanvar 2013-cü il tarixdə Bakı Dövlət Universitetində, 23 iyun 2014-cü il tarixdə isə Şəki şəhərindəki "Şəki-Palas" otelinin konfrans zalında Səidə İmanzadənin 100 illik yubileyinə həsr olunmuş «Nura boyanmış ömür» kitabının təqdimat mərasimi keçirilmişdir. Hər iki tədbirdə Səidə İmanzadənin oğlu – Azərbaycan Respublikasının Tunisdəki səfiri, Mübariz İmanzadə də iştirak etmişdir.

Səidə xanımın Şəkidə vaxtilə yaşa evin yanından keçən küçəyə adı verilmiş və həmin küçədə divara xatirə lövhəsi vurulmuşdur.

Səidə xanımın adını çəkərkən, Azərbaycan qadınının mücəssiməsi, Şərq qadınının simvolu, Alim, Pedaqoq, İnsan kimi özünü sübut edə bilmiş bir şəxsiyyət durur gözümüzün önündə. Bu nəcib, xeyirxah qadın, görkəmli alim və ictimai xadim bütövlükdə həyatını Azərbaycan qadınının tərəqqisi işinə həsr etmişdir.

Respublikanın qocaman pedaqoqu, alimi və ictimaiyyətçisi, saçlarını maarif işində, xalqımızın tərəqqisi yolunda ağartmış, mənalı ömür sürmüş, nəsillərə örnək olan Səidə xanım İmanzadə bütün həyatını gənc nəslin təlim və tərbiyəsinə həsr etmiş, Azərbaycan təhsilinə işıq tutmuş, öz adını yaddaşımıza qızıl hərflərlə həkk etmişdir.

## ƏDƏBİYYAT SİYAHISI

1 .Axundov.H. Qadınlar cəmiyyətdə və ailədə. Bakı: Azərnəşr, 1963, 59 s.
2.. D.Ağamusa. Səidə İmanzadə - alim, ictimai xanım, həyat yoldaşı, ana. İmpuls-2010, 24 dekabr, 11 s.
3. İsmayılov.E (2001). Azərbaycan qadın hərakatının görkəmli xadimi, tanınmış pedoqoq alim Səidə İmanzadə- 90. Azerbaycan, 1 iyun. S.5
4. Səidə İmanzadənin 100 illiyi qeyd olunub. İki sahil-2013, 12 yanvar, 9 s.
5. Mahmudov.M.Y. Azərbaycanda qadın hərakatının fəal xadimi, görkəmli alim, tanınmış pedoqoq: Səidə İmanzadə -100. Xalq qəzeti-2010, 26 dekabr, 5 s

## İNTERNET RESURSLARI

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 451-456*

6.https://www.wik.imedia.azaz.nina.az/S%C9%99id%C9%99_%C4%B0manzad%C9%99.html

## AZƏRBAYCAN TƏHSİLİNDƏ İZ QOYMUŞ QADIN MÜƏLLİMLƏR
## XÜLASƏ

**Xudiyeva.İ**

Məqalədə Azərbaycanın görkəmli qadın pedaqoq, alim, maarif xadimi Səidə İmanzadədən bəhs olunub. Məqalənin giriş hissəsində Səidə İmanzadənin Azərbaycan maarifçilik tarixində mövqeyinə, roluna dair faktlar göstərilib. Məqalədə Səidə İmanzadənin təhsilindən, pedaqoji fəaliyyətindən bəhs olunub. Həmçinin məqalədə onun Azərbaycan təhsilinə verdiyi töhfələr, yazdığı məqalələr, aldığı mükafatlar haqqında məlumat verilib. Məqalədə Səidə İmanzadənin işlədiyi universitet və məktəblər barəsində faktlar da öz əksini tapmışdır. Məqalədə Ulu Öndər Heydər Əliyevin Səidə İmanzadə haqqında fikirləri də yer alıb.

Məqalənin nəticə hissəsində faktlara əsasən Səidə İmanzadənin pedoqoji fəaliyyətinə dair yekun fikirlər göstərilmişdir. Onun təhsilimizin inkişafındakı milsiz xidmətlərinə dair fikirlər öz əksini tapmışdır.

Məqalənin məqsədi Azərbaycan maarifçilik tarixində öz sözünü deyən uğurlu ziyalı qadın Səidə İmanzadəni tanıtmaqdır. Onun haqqında məlumat verməK, onun fəaliyyətini öyrənmək, tədqiq etmək əsas məqsəddir.

## FEMALE TEACHERS WHO LEFT A
## Mark İn AZERBAİJANİ EDUCATİON
## SUMMARY

**Khudiyeva Ilgara**

The article mentions the outstanding female educator, scientist, educator of Azerbaijan Saida Imanzade. In the introductory part of the article, the facts about the position and role of Saida Imanzadeh in the history of Azerbaijani enlightenment are shown. The article talks about the education and pedagogical activities of Saida Imanzadeh. The article also provided information about his contributions to Azerbaijani education, articles he wrote, and awards he received. Facts about universities and schools where Saida Imanzade worked were also reflected in the article. Great Leader Heydar Aliyev's thoughts on Saida Imanzade are also included in the article.

In the final part of the article, based on the facts, the final thoughts on the pedagogic activity of Saida Imanzadeh are shown. Thoughts about his invaluable services in the development of our education have been reflected.

The purpose of the article is to introduce Saida Imanzade, a successful intellectual woman who speaks for herself in the history of Azerbaijani enlightenment. The main goal is to provide information about it, to study and research its activities.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 451-456*

## ЖЕНЩИНЫ-УЧИТЕЛЯ, ОСТАВИВШИЕ СЛЕД В АЗЕРБАЙДЖАНСКОМ ОБРАЗОВАНИИ

**Худиева И.**

**РЕЗЮМЕ**

В статье упоминается выдающаяся женщина-просветитель, учёный, просветитель Азербайджана Саида Иманзаде. Во вступительной части статьи показаны факты о положении и роли Саиды Иманзаде в истории азербайджанского просветительства. В статье говорится об образовательной и педагогической деятельности Саиды Иманзаде. В статье также представлена информация о его вкладе в азербайджанское образование, написанных им статьях и полученных наградах. В статье также отражены факты об университетах и школах, где работала Саида Иманзаде. В статье также включены мысли великого лидера Гейдара Алиева о Саиде Иманзаде.

В заключительной части статьи на основе фактов показаны заключительные мысли о педагогической деятельности Саиды Иманзаде. Отражены мысли о его неоценимых заслугах в развитии нашего образования.

Цель статьи – познакомить с Саидой Иманзаде – успешной интеллектуальной женщиной, выступившей за себя в истории азербайджанского просветительства. Основная цель – предоставить информацию о нем, изучить и исследовать его деятельность.

***Rəyçi: f.ü.f.d baş müəllim G.R.Şamilova***